**Azərbaycan və onunla qonşu ölkələrin nəqliyyatı və xarici iqtisadi əlaqələri**

**İzahat vərəqəsi**

Azərbaycan və onunla qonşu ölkələrin nəqliyyatı və xarici iqtisadi əlaqələri" fənni BDU-nun coğrafiya fakültəsində "Azərbaycan və onunla qonşu ölkələrin iqtisadi və sosial coğrafiyası" ixtisası üzrə təhsil alan magistrlərə 2-ci kursun 1-ci smestrində 45 saat həcmində (30 saat mühazirə, 15 saat məşğələ) tədris olunur.

Fənnin tədrisinin əsas məqsədi magistrlərə Azərbaycan və onunla qonşu olan ölkələrin nəqliyyatı, yük və sərnişin daşınmalarında nəqliyyatın sahələr üzrə təhlili xarici iqtisadi əlaqələrin müasir vəziyyətini və perspektiv inkişaf istiqamətlərini öyrətməkdir.

Kursun tədrisində mövzular aşağıdakı kimi müəyyənləşdirilmişdir.

**Mövzular üzrə saatların paylanması**

| | Mövzular | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Müh. | Lab. |
| 1 | Kursun predmeti, məqsəd və vəzifələri,tədqiqat üsulları | 2 | 2 | |
| 2 | Azərbaycanın nəqliyyat strukturu və onun iqtisadi coğrafi qiymətləndirilməsi | 4 | 2 | 2 |
| 3 | Azərbaycanın nəqliyyat sisteminin qonşu ölkələrin nəqliyyatı ilə əlaqələndirilməsi | 2 | 2 | |
| 4 | Azərbaycanın nəqliyyat sisteminin qonşu region ölkələrinin iqtisadi inkişafında rolu | 4 | 2 | 2 |
| 5 | Azərbaycanın qonşu ölkələrlə iqtisadi əlaqələrində dəmir yolu nəqliyyatının iqtisadi coğrafi qiymətləndirilməsi | 2 | 2 | |
| 6 | Azərbaycanın qonşu region ölkələri ilə əlaqələrində dəniz nəqliyyatının rolu və əhəmiyyəti | 4 | 2 | 2 |
| 7 | Azərbaycanın qonşu ölkələrlə əlaqələrində avtomobil nəqliyyatının rolu və iqtisadi əhəmiyyəti | 2 | 2 | |
| 8 | Azərbaycanın qonşu ölkələrlə əlaqələrində boru kəmər nəqliyyatının rolu və iqtisadi əhəmiyyəti | 4 | 2 | 2 |
| 9 | Azərbaycanın qonşu ölkələrlə əlaqələrində hava nəqliyyatının rolu | 2 | 2 | |
| 10 | Azərbaycan və onunla qonşu ölkələrin nəqliyyat əlaqələrinin inkişaf mərhələləri | 4 | 2 | 2 |
| 11 | Azərbaycanın qonşu ölkələrlə iqtisadi əlaqələrinin ümumi | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | səciyyəsi | | | |
| 12 | Azərbaycanın Rusiya Federasiyası ilə iqtisadi-coğrafi əlaqələri | 4 | 2 | 2 |
| 13 | Azərbaycan Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələrin müasir vəziyyəti və perspektivləri | 2 | 2 | |
| 14 | Azərbaycan Türkiyə ilə iqtisadi əlaqələri | 2 | 2 | 2 |
| 15 | Azərbaycan İran və Gürcüstanla iqtisadi-coğrafi əlaqələri | 3 | 2 | 1 |
| Cəmi | | 45s | 30s | 15s |

**Mövzuların qısa məzmunu**

**Mövzu:1.Kursun predmeti, məqsəd və vəzifələri, tədqiqat üsulları.** Nəqliyyatın əsas məqsədi. Yük və sərnişin daşınmalarında nəqliyyatın rolu. Əsas tədqiqat üsulları: riyazi hesablama, balans, statistik təhlil, kartoqrafik, tarixilik metodlarının mahiyyəti.

**Mövzu: 2.Azərbaycanın nəqliyyat quruluşu və onun iqtisadi coğrafi qiymətləndirilməsi.** Azərbaycanın dəmiryolu, dəniz nəqliyyatı, avtomobil nəqliyyatı, boru kəmər nəqliyyatı, hava nəqliyyatının daxili və xarici daşınmalarda üstünlükləri və fərqli cəhətlərin iqtisadi coğrafi qiymətləndirilməsi.

**Mövzu: 3. Azərbaycanın nəqliyyat sisteminin qonşu ölkələrin nəqliyyatı ilə əlaqələndirilməsi.** Azərbaycanın nəqliyyat sistemi və onun mahiyyəti. Azərbaycanın nəqliyyat sisteminin Transqafqaz, Transxəzər, Avropa-Qafqaz-Asiya nəqliyyat sistemləri ilə əlaqələndirilməsi və iqtisadi əhəmiyyəti.

**Mövzu: 4. Azərbaycanın nəqliyyat sisteminin qonşu region ölkələrin iqtisadi inkişafında rolu.** Nəqliyyatın daxili iqtisadi regionların inkişafına təsiri. Nəqliyyatın ayrı- ayrı sahələrinin Rusiya Federasiyasının, Gürcüstanın, Türkiyənin, Orta Asiya ölkələrinin, Qazaxıstanın və İran İslam Respublikasının iqtisadi inkişafında rolu.

**Mövzu: 5. Azərbaycanın qonşu ölkələrlə iqtisadi əlaqələrində dəmir yolu nəqliyyatının əhəmiyyətinin iqtisadi coğrafi qiymətləndirilməsi.** Dəmir yolu nəqliyyatının yük və sərnişin daşınmalarında digər nəqliyyat sahələrindən üstün cəhətləri. Ölkənin mühüm magistral dəmir yollarının qonşu ölkələrin nəqliyyat əlaqələrində rolu və əhəmiyyəti. Dəmir yolunun əraziyə və əhaliyə görə təminatı. Dəmiryolunun istehsal sahələrinin inkişafına təsir mexanizminin müəyyənləşdirilməsi. Bakı-Tbilisi-Kars dəmir yolunun iqtisadi əhəmiyyəti.

**Mövzu: 6. Azərbaycanın qonşu region ölkələri ilə əlaqələrində dəniz nəqliyyatının rolu və əhəmiyyəti.** Azərbaycan qonşu region ölkələrarası iqtisadi əlaqələrdə dəniz nəqliyyatının üstünlükləri. Mühüm dəniz limanlarının xarakteristikası. Xəzər dənizində fəaliyyət göstərən mühüm gəmi bərələrin iqtisadi göstəriciləri və iqtisadi qiymətləndirilməsi. Beynəlxalq yükdaşımaların tənzimlən-məsində Yeni Bakı dəniz limanının əhəmiyyəti. Digər qonşu limanların yük və sərnişin daşınmalarda olan mövqeyi.

**Mövzu: 7.Azərbaycanın qonşu ölkələrlə əlaqələrində avtomobil nəqliyyatının rolu.** Azərbaycanda avtomobil nəqliyyatının inkişaf mərhələləri. Yük və sərnişin daşınmalarda avtomobil nəqliyyatının rolu və digər nəqliyyat sahələrindən fərqli cəhətləri. Avtomobil

nəqliyyatının strukturu: respublika və yerli əhəmiyyətli yolların fərqli cəhətləri. Avtomobil nəqliyyatının əhaliyə və əraziyə görə təminatı. Kateqoriyalar üzrə avtomobil yollarının təsnifatı.

**Mövzu: 8. Azərbaycanın qonşu ölkələrlə əlaqələrində boru kəmər nəqliyyatının iqtisadi əhəmiyyəti.** Azərbaycanın nəqliyyat sistemində boru kəmər nəqliyyatının tutduğu yer. Boru kəmər nəqliyyatının qonşu ölkələrin iqtisadi əlaqələrində rolu.Boru kəmər nəqliyyatının iqtisadi səmərəliliyi. Mühüm magistral boru kəmər nəqliyyatı və onların səciyyəsi. Bakı- Tbilisi- Ceyhan, Bakı- Ərzurum, Bakı- Tbilisi- Supsa və s. Boru kəmər nəqliyyatında ekoloji təhlükəsizliyin təmin olunması.

**Mövzu: 9. Azərbaycanın qonşu ölkələrlə əlaqələrində hava nəqliyyatının rolu.** Hava nəqliyyatının xarakterik xüsusiyyətləri. Bakı hava limanı və beynəlxalq yük və sərnişin daşınmalarda olan üstün cəhətlər. Azərbaycanın daxili və xarici hava yollarının coğrafiyası. Daxili hava yollarının əsas strukturu. Beynəlxalq hava yollarının əsas istiqamətinin coğrafiyası.

**Mövzu: 10. Azərbaycan və onunla qonşu ölkələrin nəqliyyat əlaqələrinin inkişaf mərhələləri.** Nəqliyyat növlərinin tarixi-coğrafi inkişaf mərhələləri. Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində qədim “İpək Yolu”-nun, “Avropa- Qafqaz- Asiya”, “Şimal və Cənub” nəqliyyat dəhlizinin iqtisadi coğrafi qiymətləndirilməsi.

**Mövzu: 11. Azərbaycanın qonşu ölkələrlə iqtisadi əlaqələrinin ümumi səciyyəsi.** Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafında nəqliyyat sisteminin yeri və rolu. Azərbaycanın idxal və ixrac potensialının strukturu. Azərbaycanın xarici iqtisadi əlaqələrində ixtisaslaşmış məhsul növləri. Region ölkələri ilə iqtisadi əlaqələrdə neft amilinin təsiri. Bazar iqtisadiyyatı şəraitində Azərbaycanın idxal və ixrac əməliyyatlarında gömrük işinin qiymətləndirilməsi.

**Mövzu: 12. Azərbaycanın Rusiya Federasiyası ölkələrarası iqtisadi əlaqələrin coğrafiyası.** Azərbaycan- Rusiya əlaqələrində nəqliyyat amili. İqtisadi əlaqələrdə nəqliyyatın müqayisəli təhlili. Dəmir yolu, dəniz, avtomobil, boru kəmər və hava nəqliyyatının müqayisəli təhlili. Azərbaycan- Rusiya iqtisadi əlaqələrdə idxal və ixrac məhsullarının quruluşu. İqtisadi əlaqələrdə nəqliyyatın səmərəliliyinin müəyyənləşdirilməsi.

**Mövzu: 13. Azərbaycan- Mərkəzi Asiya ölkələrarası iqtisadi əlaqələrin coğrafiyası.** Azərbaycan- Orta Asiya ölkələrarası iqtisadi əlaqələrdə nəqliyyat amilinin müəyyənləşdirilməsi. Quru və su nəqliyyatının yük və sərnişin daşınmalardaüstün cəhətləri: Orta Asiya ölkələri (Türkmənistan, Özbəkistan, Tacikistan, Qırğızıstan) iqtisadi əlaqələrdə idxal və ixracın strukturu.Qazaxıstan-Azərbaycan iqtisadi əlaqələrin strukturu.

**Mövzu: 14. Azərbaycan- Türkiyə ölkələrarası iqtisadi əlaqələrin coğrafiyası və inkişaf istiqamətləri.** Azərbaycan- Türkiyə iqtisadi əlaqələrinin müasir xüsusiyyətləri. İqtisadi əlaqələrdə idxal və ixracın strukturu. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa boru kəmər nəqliyyatının Türkiyə və digər region ölkələrinin iqtisadiyyatına təsiri. Bakı- Tbilisi-Kars dəmiryolunun iqtisadi əlaqələrin inkişafında rolu.

**Mövzu: 15. Azərbaycan-İran İslam Respublikası, Gürcüstan ölkələrarası iqtisadi əlaqələrin müasir vəziyyəti və inkişaf istiqamətləri.** Azərbaycan-İran əlaqələrində dəniz, quru və hava nəqliyyatının rolu. Gürcüstan Respublikası ilə iqtisadi əlaqələrin müasir vəziyyəti. Boru kəmər və dəmir yolu nəqliyyatının Gürcüstanın iqtisadi inkişafına təsiri. Azərbaycan- İran əlaqələrinin perspektiv inkişaf istiqamətləri. Şimal və Cənub nəqliyyat dəhlizinin Azərbaycan-İran əlaqələrində əhəmiyyəti.

**Ədəbiyyat**

**Əsas**

1. Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafına dair Dövlət proqramı (2004-2008, 2009-2013, 2013-2018-ci illər) Bakı, 2004, 2009.
2. Hüseynova T.Ə. Sənayenin İqtisadiyyatı, Bakı, 2000
3. Azərbaycanın İqtisadiyyatı. Bakı, 2003
4. Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2008
5. Abbasov C.R. Xəzər dənizinin iqtisadi problemləri.
6. Nadirov A.A. Müstəqil Azərbaycan İqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2002
7. Məmmədov Z.S. Azərbaycanın Xarici İqtisadi Əlaqələri. Bakı, 2004

**Əlavə**

1. Məmmədov Z.S. XXI əsr. İqtisadi İnkişafın nəqliyyat faktoru. Bakı, 2000
2. Məmmədov Z.S. Regionların İqtisadi İnkişaf problemləri, Bakı, 2008
3. Никольский И.В. География транспорта СССР. Москва. 1978
4. "Azərbaycanın iqtisadi və sosial coğrafiyası" prof. V.Ə.Əfəndiyevin redaktəsi ilə .Bakı. 2010.
5. "Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası". N.Ə.Paşayev, N.H.Əyyubov, Z.N.Eminov. Bakı-2010.
6. «Центральный Кавказ от геополитики к геоэкономике». Э.Исмаилов, В.Папава. Баку-2006.
7. «Экономическая и социальная география стран ближнего зарубежья» под. ред. Ратановой 2006 г.